*Rəşid Faxralı*

# İyirmi iki yaşın nağılı

Yadımızdan çıxan deyil
"Yeddi qardaşın nağılı".
Sərhəd boyu daş üstünə
Düzülən daşın nağılı.

Dəli rüzgar meh gətirər,
Ləçəklərə şeh gətirər,
Ya qövsi-qüzeh gətirər
Bir çağırışın nağılı...

Görən gizlədir göy nəyi,
Sovuşmur qəmin göynəyi...
Qışdı nağılın köynəyi,
Çiçəklər - qışın nağılı.

Tilsimə düşüb kilidi,
Açılmaz tilsim kimidi...
Unuda bilməz igidi,
Dünya - savaşın nağılı.

Əl uzat göydən  üz yaşı,
Tər çiçəklərə düz yaşı...
Yağış göylərin göz yaşı,
Torpaq - yağışın nağılı.

Qaranlığı yıxan şimşək,
Qaranlıqdan axan şimşək,
Məqamında çaxan şimşək
Köntöy  baxışın nağılı.

Bu səs ərənlik səsidi,
Ya tarixin nərəsidi?!
Şəbi-hicran gecəsidi
Qışın qaraşın nağılı.

Bu köz Tanrının közüdü,
Yanar ocağın özüdü...
Əsgərə qardaş sözüdü
22 yaşın nağılı.

Kim deyir sönür? - yaşayır.
Tarixə dönür, yaşayır
Bu ömrün, yaşın nağılı.
Ruhumuzda yaşayacaq,
Ruhumuzu yaşadacaq
22 yaşın nağılı...

Azərbaycan ordusu.-2019.-30 noyabr.-S.8.